

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 144 (23.556)

1 sentyabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib.

Dövlətimizin başçısı tibb müəssisəsinin kollektivi ilə videoformatda görüş zamanı çıxış edib. Prezident İlham Əliyev bildirib ki, COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır. Hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Ölkə başçısı COVID ilə mübarizədə görülən çoxsaylı tədbirlər nəticəsində son həftələr ərzində vəziyyətin daha müsbət olduğunu, bundan sonra da qorunub saxlanılacağına əminliyini bildirib. Prezident İlham Əliyev yeni xəstəxananın açılışı münasibətilə kollektivi təbrik edib, həkimlərə uğurlar, cansağlığı arzulayıb.

Sonra Fövqəladə Hallar Nazirliyinin Tibbi və Psixoloji Yardımın Təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru Xanım Sofiyeva bu tibb müəssisəsinin yaradılmasına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalı ən müasir standartlara cavab verir.



## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

*Nazirlər Kabinetində avqust ayı ərzində müəyyən qərarlar qəbul edilmişdir. Belə ki, 13 avqust tarixində "Əllə toxunmuş xalçaların reyestr sistemi"nə daxil edilməsi nəzərdə tutulan xalçalara dair məlumatlar haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 57 nömrəli Qərarında dəyişiklik edilmişdir.*

Nazirlər Kabinetinin 74 nömrəli Qərarına əsasən "Naxçıvan Muxtar Respublikasında yol hərəkətinin təhlükəsizliyi sahəsində təbliğat-təşviqat işinin təşkili ilə bağlı 2020-2023-cü illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır. Həmin sərəncamda qeyd olunur ki, "Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlərin müəyyən edilmiş müddətlərdə icrasının təmin edilməsi üçün aidiyyəti qurumlar fəaliyyət istiqamətlərinə uyğun olaraq tədbirlər həyata keçirsinlər və görülmüş işlər barədə yarımillik və illik məlumatları hesabat dövrü başa çatdıqdan sonrakı 10 iş günü ərzində Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə təqdim etsinlər.

Həmçinin 19 avqust tarixli 143 nömrəli Qərara əsasən "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi barədə Qərar qəbul edilmişdir. Bu qaydaların əsas məqsədi pandemiya ilə əlaqədar fəaliyyəti məhdudlaşdırılmış turizm sənayesi subyektlərinin fəaliyyətlərinin bərpası zamanı sanitariya və gigiyena qaydalarına əməl olunmasını təmin etməkdir.

Eləcə də 21 avqust tarixində "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 iyul tarixli 129 nömrəli Qərarında dəyişiklik edilmişdir. Həmin tarixdə "Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında" Qərar qəbul edilmişdir.

Eyni zamanda "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin və ştat cədvəlinin təsdiq edilməsi haqqında da Qərar qəbul olunmuşdur. Qeyd edək ki, cəmiyyətin fəaliyyətinin məqsədi kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqları lizinq yolu ilə satmaq, o cümlədən suvarma sistemləri dəsti və avadanlığı, aqrokimyəvi maddələr, bitki mühafizəsi vasitələri, sertifikatlı toxum və tingləri satmaq, onlara texniki servis xidməti və kənd təsərrüfatı sahəsində aqroservis xidmətləri göstərməkdən ibarətdir.

Nazirlər Kabinetinin 26 avqust tarixli 146 nömrəli Qərarına əsasən "Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə 2021-ci il üçün əmək miqrasiyası kvotası" təsdiq edilmişdir.

Adıçəkilən qərarlarla yanaşı, "Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları"nın təsdiq olunması barədə Qərar qəbul edilmişdir. Bu qərar muxtar respublikada informasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi qaydalarını müəyyən edir. Qanunvericiliyə uyğun olaraq informasiya məhsulunun yaşa görə təsnifatlaşdırılması onun istehsalçıları tərəfindən həmin məhsulun Naxçıvan Muxtar Respublikasının ərazisində dövriyyəsindən əvvəl müstəqil şəkildə və ya qanunvericiliyə uyğun olaraq ekspertin iştirakı ilə həyata keçirilir. İnformasiya məhsulunun yayıcısı həmin məhsulun müstəqil şəkildə və ya ekspertin iştirakı ilə yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən muxtar respublika ərazisində yaya bilməz.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 28 avqust tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnaməsi" təsdiq edilmişdir. Məlumat üçün qeyd edək ki, əsasnamə Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının fəaliyyətini tənzimləyir. Qanunvericiliyə əsasən Ekspert Şurası informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert rəyindən razı olmayan hüquqi və ya fiziki şəxslərin şikayətlərinə baxır və bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün tədbirlər görür.

149 nömrəli Qərara uyğun olaraq "Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları" təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 aprel tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda dəyişiklik edilmişdir.

"Naxçıvan Muxtar Respublikasında ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və gümüş nişanla təltif olunması, ümumi və tam orta təhsil haqqında fərqlənmə attestatlarının verilməsi Qaydası"nın təsdiq edilməsi barədə Qərar qəbul edilmişdir. Qərara əsasən ümumtəhsil məktəbində təhsil aldığı müddətdə təhsildə xüsusi nəticələri ilə bərabər nümunəvi davranışı ilə fərqlənən tam orta təhsil səviyyəsinin məzunlarının namizədliyi tam orta təhsil haqqında fərqlənmə attestatının verilməsi və onların qızıl və ya gümüş nişanla təltif olunması, ümumi orta təhsil səviyyəsində isə nümunəvi davranışı ilə fərqlənənlərin namizədliyi ümumi təhsil haqqında fərqlənmə attestatının verilməsi üçün təqdim edilir.

Nazirlər Kabinetinin 28 avqust tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə sığorta ehtiyatlarının yaradılması və onlardan istifadə Qaydası" təsdiq edilmişdir. Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

*Dövlət proqramı icra olunur*

## Rəqəmsal ödəniş sistemi iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir

***Müasir dünyada rəqəmsal ödəniş sistemlərinin inkişafı biznes mühitinin yaxşılaşmasına və iqtisadi səmərəliliyin artırılmasına təkan verən əsas vasitələrdən hesab olunur. Müasir və əlçatan internet infrastrukturu, optimal vergi və gömrük tənzimlənməsi, dəqiq statistika, elektron biliklər və maarifləndirmə rəqəmsal ödəniş sisteminin inkişafında baza təşkil edir.***

Naxçıvan Muxtar Respublikasında da nağdsız ödəniş infrastrukturunun inkişafına şərait yaradan innovativ tədbirlərin əhatə dairəsi genişlənməkdədir. Görülən işlərin əsas məqsədi əhali, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş imkanlarının daha da artırılmasıdır. Bu məqsədlə hazırlanan və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da 14 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. Bu tapşırıqların icrası muxtar respublikamızda rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılmasına xidmət edir.




Naxçıvanda mövcud rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsi nağd dövriyyənin həcminin minimuma endirilməsinə imkan verir. Dövlət proqramında da bu məqsədlə POS-terminal, bankomat və digər ödəniş terminallarının quraşdırılması ilə bağlı tapşırıq müəyyən edilmişdir. İkinci rübdə muxtar respublikada banklar tərəfindən 81 təmassız ödəniş etməyə imkan verən POS-terminal, 1 bankomat, 3 çoxfunksiyalı ödəniş terminalı quraşdırılmışdır. Nəticədə, bankomatların sayı 113-ə, ödəniş terminallarının sayı 66-ya, POS-terminalların sayı isə 1310-a çatdırılmışdır. Bu POS-terminallardan 586-sı Naxçıvan şəhərində, 724-ü isə rayon və kənd mərkəzlərindədir.

Dövlət proqramında müəyyən edilmiş mütərəqqi tədbirlərdən biri də publik hüquqi şəxs statuslu müəssisələrdə ödənişlərin onlayn və POS-terminallar vasitəsilə qəbulu sahəsində tədbirlər görülməsidir. Muxtar respublikamızda bu statusa malik səhiyyə müəssisələrində nağdsız ödəniş imkanlarının artırılması ilə bağlı görülən işlər insanların rahatlığının təmin olunmasına yönəlmişdir. Aprel-iyun aylarında Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum Mərkəzi, Kardiologiya Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri, Yoluxucu Xəstəliklər Mərkəzi, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, Naxçıvan Dövlət Universiteti Xəstəxanası, Şərur Rayon Uşaq və Mərkəzi, Şahbuz, Babək, Ordubad Rayon Mərkəzi xəstəxanaları və Darıdağ Arsenli Su Müalicəxanası olmaqla, ümumilikdə, 15 publik hüquqi şəxs statuslu tibb müəssisəsində POS-terminallar quraşdırılmışdır.

Muxtar respublikada iqtisadiyyatın nağdsızlaşdırılması ilə bağlı tədbirlər özəl sektoru da əhatə etməkdədir. Bu da əhali və biznes subyektləri arasında rəqəmsal ödəniş sistemlərinin genişləndirilməsi imkanlarını artıran mühüm amildir. İkinci rübdə Dövlət proqramının icrası istiqamətində POS-terminal quraşdırılmış ticarət, iaşə və digər xidmət obyekti sahiblərinin ödəniş kartları ilə təmin edilməsi, özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada ödənişi prosesi davam etdirilmişdir. Bu dövrdə 23 vergiödəyicisi üzrə 209 işçinin rekvizitləri bank orqanlarına təqdim olunmuş, bunlardan 7 vergiödəyicisi üzrə 97 işçinin əməkhaqlarının plastik kartlara keçirilməsi təmin edilmişdir.

**"Şərq qapısı"**

***Vətənimizin ən qərb nöqtəsi, Azərbaycanın Avropaya açılan qapısı, qədim və həmişəcavan Naxçıvanımızın qeyrət qalası olan Sədərək haqqında çox deyilib, çox yazılıb. Lakin Naxçıvan şəhərindən cəmi 80 kilometr məsafədə olan bu rayon haqqında düşünərkən onun çox yox, 30 il öncəsi, yaxın keçmişdəki qəhrəmanlıqla müdafiəsi yada düşür. İftixarla xatırlayırıq ki, torpaqlarımıza göz dikmiş yağı düşmənə ilk zərbə məhz Sədərək kəndinin müdafiəsi zamanı endirilib.***



*Müasirləşən bölgələrimiz*

# Gündən-günə inkişaf edib gözəlləşən SƏDƏRƏK



Rayon əhalisi son dərəcə ağır anlarda muxtar respublikanın vətənpərvər oğulları ilə dahi rəhbərin ətrafında yumruq kimi birləşib düşmənin başında ildırım kimi çaxdı. Düşmənin atdığı “Qradlar”, “Alazanlar” Sədərək torpağına yağış kimi yağsa da, doğma yurdunu, isti eveşiyini heç kim tərk etmədi və bu gün qüdrətli ordumuzun gücündən vahiməyə düşən ermənilər buraya baxmağa belə, cürət etmir. Elə bu qürurlu hisslərlə bu gün də burada həyat öz axarı ilə davam edir. Sədərəklilər bu torpaqdan bir addım da olsun, geri çəkilmədiyi kimi, onu tərəqqiyə qovuşdurub əsl cənnətə çevirməyi də yaxşı bacarırlar. Rayonun müasir mənzərəsinə baxdıqda onun tarixi təsərrüfatçılıq ənənələri və sosial həyatı ön plana çıxır. Onu da qeyd etməliyik ki, sədərəklilər təsərrüfatda bacarıqlı, işgüzar insanlardır. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etsə də, digər sahələrdə də mühüm uğurlar əldə olunub.

### *Yüksəliş rəqəmlərin dili ilə*

Sosial-iqtisadi sahədə görülmüş işlərin təhlili göstərir ki, Sədərək rayonunda bütün istiqamətlərdə uğurlu nəticələr əldə edilib. Təkcə cari ilin yeddi ayına aid iqtisadi göstəricilərə nəzər salsaq, bunu aydın görərik. Həmin dövrdə rayonda 1 milyon 897 min 100 manatlıq, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çox sənaye məhsulu istehsal olunub. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11 milyon 59 min manat vəsait yönəldilib. Həmin vəsaitin də 9 milyon 886 min 600 manatı və ya 89,3 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Onu da qeyd etmək yerinə düşər ki, ötən illər ərzində rayon mərkəzi Heydərabad qəsəbəsində yeni binalar tikilib, küçələr salınıb, yaşıllıq zolaqları yaradılıb. İndi qəsəbəyə xüsusi gözəllik və yaraşıq verən həmin obyektləri saymaqla qurtarmaq olmaz: Heydər Parkı, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahmat məktəbi, qəsəbə tam orta məktəbi, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının inzibati binası, rayon Məhkəməsi, Prokurorluq, Polis Şöbəsi üçün inzibati binalar və sair. Genişmiqyaslı tikinti-abadlıq və quruculuq işləri bu gün də eyni sürət və keyfiyyətlə davam etdirilməkdədir. Ötən il Heydərabad qəsəbəsində inşa olunan yeni yaşayış binası Ermənistanla sərhəddən cəmi bir kilometr məsafədə yerləşir. Zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 48 mənzil sədərəklilərin istifadəsinə verilib. İnşası davam edən Bayraq Meydanı, teleötürücü, yeni su-kanalizasiya sisteminin çəkilişi də dövlət qayğısının daha bir nümunəsidir.



Sədərəkdə aqrar sahənin inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi hər zaman diqqət mərkəzində olub. Rayonda iş adamlarına, fərdi təsərrüfatla, əkin-biçinlə məşğul olanlara geniş imkanlar açılıb. Hara baxırsan taxıl zəmiləri, kartof, bostan-tərəvəz tarlaları, üzüm, meyvə bağları, biçənək, yonca sahələri, istixanalardır.

Sədərək rayon Statistika İdarəsindən aldığımız 1 avqust 2020-ci il tarixə olan məlumata görə, 2387 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 8664 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 36,3 sentner təşkil edib. 1621 hektar buğda əkini sahəsindən 5934 ton məhsul tədarük olunub. Məhsuldarlıq 36,6 sentnerə çatdırılıb. 736 hektar arpa əkini sahəsindən 2657 ton məhsul yığılıb. Hər hektarın məhsuldarlığı orta hesabla 36,1 sentner təşkil edib. 30 hektar dənli-paxlalılar əkini sahəsindən 73 ton dənli-paxlalılar tədarük olunub. Məhsuldarlığı 24,3 sentnerə çatdırılıb, 101 hektar kartof əkin sahəsinin 79,2 faizindən 1080 ton kartof toplanıb. Məhsuldarlıq orta hesabla 135 sentner olub.

Qədim əkinçilik ənənələrinin yaşadıldığı Sədərəkdə tərəvəz və bostan sahələrində də bolluqdur. Belə ki, 371 hektar tərəvəz bitkiləri əkilən sahənin 93 faizindən 3116 ton tərəvəz məhsulları toplanıb. Bostan bitkiləri 192 hektarı əhatə edib ki, onun 87,5 faizindən 1564 ton bostan məhsulları yığılıb.

Son illər rayonda yeni meyvə bağları salınır, vaxtilə soyuqdan donmamaq üçün kəsilən, düşmən mərmilərinə tuş gələn ağacların yerinə yenilərinin əkilməsinə, üzüm bağlarının salınmasına ciddi önəm verilir. Ümumilikdə, Heydərabad qəsəbəsində 19,5, Sədərək kəndində 53,6, Qaraağac kəndində isə 42 hektar meyvə bağı mövcuddur. Bu il rayonda 1,7 hektar ərazidə yeni meyvə bağı salınıb. Həmçinin bərpa məqsədilə, ümumilikdə, 8,7 hektar sahədə 5700 meyvə, 1200 meşə və 1570 həmişəyaşıl ağaclar, 6830 gül-bəzək kolları və 1420 üzüm tingi, o cümlədən Heydərabad qəsəbəsində 500 çinar və 200 cəviz ağacı əkilib. Barverən meyvə bağlarından 539 ton məhsul yığılıb.

Heyvandarlıq kənd sakinlərinin əsas dolanışıq mənbəyidir. Bu gün Sədərək və Qaraağac kəndlərində elə ev tapılmaz ki, orada bir-iki baş mal-qara olmasın. Rayonda heyvandarlıq məhsullarının istehsalı ilbəil artır. 2020-ci ilin yanvar-iyul aylarında Sədərək rayonunda diri çəkidə 254 ton ət, 1359 ton süd, 1060 min yumurta, 17,4 ton yun istehsal edilib. Bütün təsərrüfat sahələri üzrə əldə edilən nəticələr ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli artıb.

Xidmət sektorunun səviyyəsi əhalinin rifah halının daha da yaxşılaşmasına öz təsirini göstərir. Rayonda müasir nəqliyyat sisteminin qurulması, bu sektorun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2020-ci ilin yanvar-iyul aylarında avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 253 min 200 ton yük, 448 min 800 sərnişin daşınıb. Rayonda informasiya və rabitə xidmətlərinin həcmi 625 min 800 manat olub.

Əhalinin məşğulluq problemlərinin həlli istiqamətində görülən işlər, mütəmadi olaraq keçirilən əmək yarmarkaları Sədərək rayonunda da öz bəhrəsini verməkdədir.



Səmərəli məşğulluq imkanlarının yaradılması rayon sakinlərinin alıcılıq qabiliyyətini yüksəldib, əmtəə dövriyyəsinin həcmini genişləndirib.

### *Yaşıllıqlar diyarına çevrilən Sədərəkdə təşəbbüskar və yaradıcı mühit, sağlam mənəvi-psixoloji ab-hava, sabaha dərin inam var*

Sədərəyin hər qarışının müasir mənzərəsi, sözün əsl mənasında, insanın ürəyində fərəh doğurur. Bu gün Sədərəyi Vəli dağından seyr edəndə yaşıllıqlar içində müasir və yaraşıqlı bir rayon mərkəzi, abad evlər, axarlı-baxarlı həyətlər, güllü-çiçəkli küçələr görürük. Kəndin keçmişi ilə müqayisə edilməyəcək bugünkü gözəlliyini seyr edə-edə dahi rəhbərin adını daşıyan qəsəbədə salınmış istirahət parkında əyləşən bir neçə ağsaqqal ilə həmsöhbət oluruq.

Zakir Zamanov rayonun yaşlı sakinlərindən biridir. Onun dediklərindən: – Bir vaxtlar bu torpaqlarda yetişdirilən üzümün, istixanalarda becərilən qərənfillərin sorağı uzaq diyarlardan gəlirdi. Günümüz, güzəranımız gözəl idi, ta o vaxta kimi ki, mənfur ermənilərin iç üzünü gördük. Vaxtilə süfrələrimizin başında əyləşdirdiyimiz, bir tikə çörəyimizi bölüşdüyümüz, hələ bu az imiş kimi, əlçatmaz, ünyetməz dağlarımızda, yurdumuzda sığınacaq verdiyimiz xainlər xalqımızın üstünə “Alazan”ı, “Qrad”ı bax həmin yüksəkliklərdən atırdılar. Dolu kimi yağan mərmilər evləri, ocaqları dağıdırdı. Heç bir günahı olmayan insanlar qanlarına qəltan edilirdilər. Həmin hadisələrdə peşəsindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, əli silah tutan hər kəs döyüşərək torpağı qorumağa can atırdı... Ağır silahlardan atılan mərmilər kəndi xarabaya çevirmişdi. Ötən əsrin 70-ci illərində salınan qəsəbə tamam dağıdılmış, ulu öndərin göstərişi ilə inşa edilən şərabçılıq zavodu, əhalinin əsas dolanışıq mənbəyi olan gül istixanaları, üzüm plantasiyaları yerləyeksan edilmişdi. Nə qədər şəhid versək də, iradəmiz sınmadı. Bu iradə Vətən sevgisindən, torpaq məhəbbətindən, ən əsası isə ulu öndərin yurduma qayıdışından güc alırdı. Dahi rəhbərin gəlişi səngərdəki əsgərə də, evindən didərgin düşən Sədərək camaatına da güc və ümid verirdi. Onun Sədərəkdə döyüş mövqelərindəki oğullarla və “Dəhnə” adlandırılan ərazidə çadırlarda yaşayan sakinlərlə görüşü hələ də yaddaşlardadır, indi də qürurla xatırlanır.

Həmin günlərdə insanlar körpə uşaqlarını, qocaları təkcə erməni hücumundan deyil, qışın sərt şaxtasından da qorumağa səy göstərirdilər. Mənfurların hücumuna paralel olaraq mavi yanacağın kəsilməsi, elektrikin olmaması, neftin tapılmaması üzündən insanlar yol kənarında, inzibati binaların həyətində, öz yaşayış yerlərində olan ağacları kəsib soyuqdan donmamaq üçün yanacaq kimi istifadə etməyə məcbur qalmışdı. Elə buna görə də gövdəli ağacların yerində kötükləri cərgələnirdi. Yadımdadır, məhəlləmizdə əncir, tut, nalbənd ağaclarına dəymirdik. Çünki onların müqəddəs olduğuna inanırdıq. Həmin çətin günlərdə belə, dəyərlərimizi qorumağa can atırdıq. Şükür, böyük Yaradanın mərhəmətinə ki, bizə dahi rəhbər Heydər Əliyev kimi bir şəxsiyyət bəxş edib. Onun yenidən siyasi hakimiyyətə qayıdışından sonra xəyal belə, edə bilməyəcəyimiz inkişafa nail olduq. Nizam-intizam, əmin-amanlıq bərpa edildi, güclü ordu yaradıldı. İnsanlar öz evinə, yurduna qayıtdı. Hər zaman öz xalqının yanında olan, ən çətin məqamlarda belə, Vətəni üçün əlindən gələni edən dahi şəxsiyyət xalqın təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması və onların bərpası istiqamətində də ciddi və ardıcıl tədbirlər həyata keçirməyə başladı. Ulu öndərin müəyyənləşdirdiyi ekoloji siyasət sayəsində bu gün diyarımızda yeni meşələr, bir-birindən gözəl parklar və istirahət guşələri yaradılıb. Bütün bunlar muxtar respublikamızın əlvan təbiətinin mühafizəsinə əsaslı təminat verir. Ana təbiətin köksünə illər öncə vurulan baltaların ürəyimizə işləyən məsum səslərini yaşıllıqlar qoynunda istirahət edən övladlarımızın şən səsləri əvəz edib. Bütün sakinlər bu gözəllikləri bizə bəxş edən ulu öndərimizə, onun yolunun layiqli davamçılarına daim minnətdar olacaq.

Söhbətimizin bu yerində bizə qoşulan rayon ziyalısı Novruz Əliyev bildirir ki, ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasəti hər sahədə uğurla davam etdirilir. Muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Sədərəkdə də insan əlləri ilə ərsəyə gətirilmiş gözəlliklər qorunur, onlara aqrotexniki qulluq göstərilir. Belə ki, hər həftənin şənbə günləri idarə və müəssisə kollektivləri iməcilik yolu ilə əkib-becərdikləri bağlara, meşə zolaqlarına çıxır, oradakı ağac və tinglərin quru budaqlarını və lazımsız zoğlarını vurur, ərazini alaq otlarından təmizləyir, ağacların gövdələrini sönmüş əhənglə ağardır və suvarırlar. Ali Məclis Sədrinin şəxsən yaşıllıqların salınmasında iştirak etməsi hər bir naxçıvanlıya böyük ruh yüksəkliyi bəxş edir. Bu qayğının, bu qulluğun nəticəsidir ki, doğma Naxçıvanımız artıq yaşıllıqlar diyarına çevrilib. Təkcə Heydərabad qəsəbəsinin illər öncəki vəziyyəti ilə bu gününü müqayisə etdikdə qeyd olunan faktlar açıq-aydın göz önünə çıxır. Bu gün Sədərək rayonunda nəqliyyat yollarının kənarlarında əkilmiş meyvə və meşə ağacları bu yollardan keçənlərin zövqünü oxşamaqla bərabər, ekoloji təmizliyi də təmin edir. Yolboyu baş-başa verən müxtəlif ağaclar zövq oxşayır, meyvə bağları bar-bəhər verir. Ən sevindirici hal isə yetişən meyvələrin toplanaraq Vətənin keşikçiləri olan əsgərlərə sovqat aparılmasıdır. Bu gün Sədərəkdə yaşı çox olan ağacı da, kiçik fidanı da uşaq kimi əzizləyib qulluq göstəririk. Hər bir sədərəkli rayonumuzun gözəlləşməsinə öz töhfəsini verməyə çalışır.

Novruz Əliyev onu da diqqətimizə çatdırır ki, 1995-ci ildən başlanan yeni inkişaf dövrünü qədirbilən sədərəklilər hər zaman böyük minnətdarlıq hissi ilə qeyd edirlər. Çünki Naxçıvanın hər bir bölgəsi kimi, Sədərək də məhz həmin dövrdən etibarən öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Rayon sakinlərinin söylədiklərini Sədərək rayonunda yaşıllıq sahələrinin necə çoxalmasına, rəqəmlərə nəzər saldıqda daha aydın görürük: Əgər 2011-ci ildə rayon ərazisində meyvə və giləmeyvə bağlarının ərazisi 75 hektar təşkil edirdisə, bu gün bu rəqəm 114,2 hektara çatıb.

*Bütün bunlar onu deməyə əsas verir ki, illər öncə çəkilən əziyyətlərin, keçmişin acı bir xatirəyə çevrilməsinin əsas səbəblərindən biri mavi yanacaq, elektrik və içməli su ilə təminatla bağlı problemlərin öz həllini tapmasıdır. İndi hər kəs bu problemlərdən uzaqdır, öz gündəlik təsərrüfat qayğıları, iş-gücü ilə məşğuldur. İnsanlar indi vaxtını ərzaq, neft növbələrinə yox, yaşadığı bölgənin daha da inkişafına, abadlaşıb gözəlləşməsinə, məhsul bolluğunun yaradılmasına sərf edir. Hər kəs öz məhsuldar fəaliyyəti ilə ümumi işə töhfəsini verməyə çalışır. Bir vaxtlar çöllü-biyabana bənzəyən, barıt qoxusu gələn, top-güllə səsindən qulaq tutulan bu torpaqlar indi yaşıllıqlar məskəninə, gül-çiçək rayihəli yurda – gülüstana dönüb. Bu gün Sədərəyin Naxçıvanın inkişaf edən gözəl bir guşəsinə çevrilməsi bizə qürur, düşmənə gözdağıdır. Bu qədim Oğuz yurdunun daha firavan günləri, xoş sabahı isə hələ qarşıdadır.*

**Ramiyyə ƏKBƏROVA**

## "Yaşıl aptek" istifadəyə verilib, avadanlıqlar, şüşə qablar və kimyəvi reaktivlərin təqdimatı olub



Naxçıvan şəhərində yeni "Yaşıl aptek"in istifadəyə verilməsi ilə əlaqədar keçirilən tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, bu aptek bölmə yaradılan dövrdən mövcud olsa da, texniki imkanları indiki səviyyədə deyildi. Məhz Ali Məclis Sədrinin göstərişi ilə iki otaqdan ibarət şəkildə yenidən qurulan aptekdə ən müasir avadanlıqlar quraşdırılıb. Adından da göründüyü kimi, "Yaşıl aptek"in fəaliyyət imkanlarının genişləndirilməsində məqsəd bilavasitə Naxçıvanın zəngin təbiətindən, faydalı qazıntılarından alınan, eləcə də aparılan elmi-tədqiqat işləri nəticəsində əldə olunan məhsulların satışını təşkil etməkdir.

Akademik qeyd edib ki, ötən dövrdə qədim diyarın bitki örtüyündən nümunələr götürülərək elmi-tədqiqat işlərinə cəlb edilib və yüksəkkeyfiyyətli təbii məhsullar əldə olunub. Ötən ildən başlayaraq Şorsu palçığı və onun quru qalığı, Darıdağ arsenli suyunun buxarlanması nəticəsində yuyucu vasitə, həmçinin alınan yeni aparatların köməkliyi ilə Ordubad rayonunun Aşağı Əylis kəndində biokimyəvi tədqiqatlar laboratoriyasında ekstraktlar, yağlar, eləcə də bu ildən iki formada gülab istehsal edilir. Bundan əlavə, Duzdağ və digər ərazilərdən əldə olunan gildən yuyucu maddələr alınır ki, onun da gələcəkdə qablaşdırılaraq satışının təşkili nəzərdə tutulur. Elmin inkişafına göstərdiyi böyük qayğıya görə Ali Məclisin Sədrinə dərin minnətdarlığını bildirən akademik İsmayıl Hacıyev aptekdə satışa çıxarılan digər məhsullar barədə də geniş məlumat verib, yaradılan şəraitdən səmərəli istifadə olunacağını, gələcəkdə məhsul istehsalının artırılacağını bildirib.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya elmləri doktoru İsmayıl Məmmədov çıxışında qeyd edib ki, institut ötən dövr ərzində muxtar respublikanın flora və faunasının, genofondunun qorunması üçün əsaslı elmi-tədqiqat işləri aparıb və hazırda bu istiqamətdə tədbirlər davam etdirilir. Steril şəraitdə qurudulan dərman bitkilərindən, hələlik 16 adda xəstəliyin müalicəsində istifadə edilməsi üçün xüsusi təcrübələrlə yoxlanılmış reseptlər əsasında dərman bitkisi qarışıqları hazırlanır. Həmin qarışıqlar "Yaşıl aptek"də və müxtəlif əczaxanalarda satışa çıxarılır. Bildiyimiz kimi, bu gün artıq dünyada kimyəvi dərman istehsalından çox fitoterapiyaya üstünlük verilir. Avropa Birliyi də artıq antibiotiklərdən istifadəyə qadağa qoyub və aparılan tədqiqatlar belə deməyə əsas verir ki, ancaq təbii bitkilərdən hazırlanan dərmanlar vasitəsilə orqanizmi effektiv şəkildə müalicə etmək mümkündür. İnstitut əməkdaşları da yaradılan şəraitdən səmərəli istifadə etməklə muxtar respublikamızın təbii ehtiyatlarından yeni dərman vasitələri hazırlamağa çalışır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxışında qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il avqustun 7-də AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzalaması ilə muxtar respublikamızın elmi mühiti mərkəzləşib, sistemli və davamlı inkişaf mərhələsinə qədəm qoyub.

Qeyd olunub ki, Ali Məclis Sədrinin elmin inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində ötən dövr ərzində bölmə institutlarının tam formalaşması, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində sistemləşdirilmiş formada böyük işlər görülüb. Bundan əlavə, bölmə əməkdaşlarının maddi vəziyyətinin yaxşılaşdırılması yönündə atılan addımlar, elm adamları tərəfindən verilən layihələrin daim dəyərləndirilməsi, eləcə də dövlət elm siyasətinin davamı olaraq elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublikasının mükafatlarının təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Elmin İnkişafı Fondunun yaradılması elmi yenilikləri ölkə hüdudlarından kənarda tanıtmaq, maddi-texniki bazanı ən müasir səviyyədə yeniləmək, eyni zamanda kadr hazırlığına geniş imkanlar açıb. Ali Məclis Sədrinin verdiyi tapşırıqlar əsasında elmin istehsalata sirayət etməsi istiqamətində işlər görülür, eyni zamanda yaxın vaxtlarda "Elm festivalı"nın keçirilməsi də nəzərdə tutulur. Həmçinin tapşırıqların icrası istiqamətində Bioresurslar İnstitutunda İnnovasiya və elmi istehsalat şöbəsi yaradılıb ki, bu da elmi-tədqiqat işlərinin vahid formada təşkilinə imkan verəcək. Məhz təbii dərman bitkilərinin satışını həyata keçirəcək "Yaşıl aptek"in yenidən qurulması da Ali Məclis Sədrinin insan amilinə verdiyi böyük önəmdən irəli gəlir.





* * *

AMEA Naxçıvan Bölməsinə alınmış avadanlıqlar, şüşə qablar və kimyəvi reaktivlərin təqdimatı mərasimində bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək muxtar respublikada elmin keçdiyi inkişaf yoluna nəzər salıb, yeni təqdim olunan 54 adda şüşə qab və kimyəvi reaktivlərin, müasir professional printer və digər avadanlıqların əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid bildirib ki, muxtar respublikamızda elmin sistemli inkişafı 1996-cı ildən başlayıb. Bununla bağlı imzalanan mühüm sərəncamlar tarixi keçmişimizin qaranlıq səhifələrinin elmi tədqiqatı, innovativ layihələrin dəstəklənməsi və tədqiqat nəticələrinin onlarla elmi nəşr vasitəsilə geniş ictimaiyyətə çatdırılması ilə nəticələnib. Atılan mütərəqqi addımlar ümummilli liderimizin tarixi keçmişimizin öyrənilməsi ilə bağlı tövsiyələrinə əsaslanaraq elmin gələcək inkişafının konturlarını müəyyən edib.

Surə Seyid qeyd edib ki, muxtar respublikada elmin inkişafına hərtərəfli qayğı dövlətçiliyin möhkəmləndirilməsi və xalqın milli-mədəni tərəqqisinə və elm adamlarının sosial rifah halının yüksəldilməsinə xidmət edən dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Vurğulanıb ki, müasir dövrdə muxtar respublikamızın iqtisadi inkişafı elmi inkişaf səviyyəsindən və qazanılan nailiyyətlərin tətbiqindən asılıdır.

Qeyd olunub ki, bu gün istifadəyə verilən "Yaşıl aptek" və AMEA Naxçıvan Bölməsi üçün alınan yeni avadanlıqlar muxtar respublikada elmin istehsalatda uğurlu tətbiqinə, innovasiya əsrinin tələblərini əks etdirən yeni layihələrin, müasir elmi düşüncələrin reallaşmasına səbəb olacaq, muxtar respublikamızın gələcək inkişafına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri Rafael Əliyev bildirib ki, muxtar respublikada elmin inkişafı sahəsində atılan addımlardan biri də AMEA Naxçıvan Bölməsi üçün laboratoriya və nəşriyyat avadanlıqları, şüşə qablar və kimyəvi reaktivlərin alınmasıdır. Həmçinin "Yaşıl aptek"in təmir edilməsi, mebel ilə təmin olunması bu işlərin davamıdır. Bütün bu görülən işlər muxtar respublikanın dövlət büdcəsi vəsaitləri hesabına həyata keçirilib. Belə ki, bölməyə laboratoriya avadanlıqları, şüşə qablar və kimyəvi reaktivlərin alınmasına 44 min 469 manat, nəşriyyat işinin keyfiyyətlə həyata keçirilməsi məqsədilə professional printer və kağız alınması üçün 13 min 719 manat, proyektor və geniş elektron ekran alınması üçün 5 min 928 manat, "Yaşıl aptek"in təmir edilməsi, mebel və lazımi avadanlıqlarla təchiz olunması üçün 18 min 620 manat olmaqla, ümumilikdə, 82 min 955 manat vəsait xərclənib.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev təqdim edilən avadanlıqların tədqiqat işlərinin həcminin artırılmasında, yeni layihələrin reallaşdırılmasında mühüm rol oynayacağını qeyd edib, elmin inkişafına göstərilən qayğıya görə alim həmkarları adından dövlətimizə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları yeni avadanlıqlarla əyani tanış oldular.

✍ **Nail ƏSGƏROV**

## Müəllimlərin işə qəbulu üçün test imtahanları başlayıb



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müəllimlərin işə qəbulu üçün 30 iyun 2020-ci il tarixdə elan edilmiş müsabiqənin test imtahanlarına start verilib.*

Müsabiqəyə 268 vakant vəzifə çıxarılıb. Ən çox vakant vəzifələr Şərur rayonu (63 yer), Ordubad rayonu (60 yer) və Babək rayonu (40 yer) üzrə mövcud olub. Müsabiqədə iştirak etmək üçün 742 namizəd sənəd təqdim edib ki, bu da son illərdə ən yüksək göstəricidir. Belə ki, 2018-ci ilin eyni dövründə 527, 2019-cu ildə isə 599 müraciət qeydə alınıb. Ən çox müsabiqə vəziyyəti İbtidai sinif müəllimliyi (146 müraciət), İngilis dili (145 müraciət), Tarix (69 müraciət) və Azərbaycan dili (55 müraciət) ixtisasları üzrə müəyyənləşib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli 61 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na müvafiq olaraq müəllimlərin işə qəbulu üçün elan olunmuş müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi almış, habelə xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış muxtar respublikada yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramlarına aid 40, təlim metodikası və təlim strategiyalarına aid 20 test tapşırığı təqdim edilir. Vakant vəzifənin tutulması üçün müraciət edənlər arasında ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunur. Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 50 faizini (30 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 75 faizini (45 bal), habelə musiqi, texnologiya, təsviri incəsənət, fiziki tərbiyə fənləri üzrə işə qəbul, o cümlədən rus bölməsində işləmək üçün test tapşırıqlarının 40 faizini (24 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir.

Test imtahanları 16 sentyabr 2020-ci il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında digər sahələrlə yanaşı, idmana da xüsusi qayğı ilə yanaşılır. İldən-ilə yenilənən infrastruktur, bu sahənin inkişafı üçün atılan addımlar və idmançılarımızın qazandıqları uğurlar getdikcə artır.*

## Naxçıvanda təlim-məşq kompleksi yaradılır





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən idmanın inkişafı ilə bağlı verdiyi tövsiyə və tapşırıqlarda yeni istiqamətlər öz əksini tapıb. Belə ki, ötən il bölgədə 5 illik inkişaf strategiyası ilə fəaliyyətinin yeni mərhələsinə başlayan Naxçıvan Futbol Federasiyası göstərilən dəstək və etimad nəticəsində muxtar respublikanın futbol həyatındakı ən önəmli layihəsini reallaşdırmaq üzrədir. Yaxın gələcəkdə federasiyanın təlim-məşq kompleksi istifadəyə veriləcək.

Plana əsasən artıq ilkin inşaat işlərinə start verilib. Uzunoba gölünün ətrafındakı ərazini əhatə edən kompleksin tikintisi üçün, ilk növbədə, relyefin hamarlanması işlərinə başlanılıb. Paralel olaraq kanalizasiya xətlərinin çəkilməsi, kompleksə daxil olan tikililərin təməlinin qazılması və digər işlər görülür. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Futbol Federasiyası inşaat işlərinin gedişinə nəzarət edir.

Qeyd edək ki, federasiyanın təlim-məşq kompleksinin ərazisinə iki tribunadan ibarət süni örtüklü futbol stadionu, üstüörtülü və hasara alınmış mini-futbol meydançaları, iki tribunalıq çimərlik futbolu stadionu və inzibati bina daxildir. Eyni zamanda tribunaların daxilində paltardəyişmə, hakim və həkim otaqları da olacaq.

Tikinti işlərinin növbəti ilin əvvəllərində yekunlaşdırılması nəzərdə tutulur.

✍ **Ceyhun MƏMMƏDOV**

# Ürəyimiz yananda çay...



"Çay dəsti". Rəssamı Fizzə Quliyeva

### Çay süfrə mədəniyyəti ...

Milli dəyərlərimiz içərisində özünəməxsus yer tutan ənənələrdən biri qonaqpərvərlikdir. Gələn qonağı qarşılamaq, ona ilk olaraq çay təklif etmək isə hörmət əlaməti kimi artıq bir adətə çevrilib. Hər hansı bir qonaqlıq çay ilə başlayıb, elə onunla da qurtarır. Şərq və Qafqaz xalqlarının süfrə mədəniyyəti ilə tanış olarkən qonaq qarşılama zamanı çay süfrə mədəniyyətinin xüsusi rolu olduğunu görürük.

Çayın məcməyidə qonağa təqdim edilməsi təkcə hörmət əlamətilə məhdudlaşmır. Çay dünyada sudan sonra ən çox istehlak edilən içki növüdür. 5 minillik tarixi olan çayın yaranmasını böyük Çin imperatoru Shen Nunginin adı ilə əlaqələndirirlər. Əfsanəyə görə, xidmətçilərindən biri bağçada su qaynadarkən yarpaqlardan biri suyun içinə düşərək ətrafa gözəl ətir saçır. İmperator yarpaq düşmüş sudan içir və aldığı dadı çox bəyənir. O gündən sonra çay Çin ərazisində, daha sonra isə bütün dünyada əvəzolunmaz içkiyə çevrilir.

Çay bitkisi ilk dəfə Qafqazda XIX əsrin 40-cı illərində əkilib. Təcrübələr uğurlu olduğundan onun artırılması işlərinə 1876-cı illərdən başlanılıb. Güman olunur ki, Azərbaycanda 1892-1898-ci illərdə təcrübə üçün gətirilən sortlar Lənkəran, Car- Balakən rayonlarında sınaqdan çıxıb, çayın ölkəmizdə kütləvi şəkildə istehsalına 1937-ci ildən başlanılıb, qısa zamanda bir çox bölgələrdə çay süfrə mədəniyyəti formalaşaraq inkişaf edib. Tarixi mənbələrdən, adət-ənənələrimizi əks etdirən etnoqrafik nümunələrdən də aydın olur ki, çaydanlarda və mis samovarlarda çay qaynadaraq içmə vərdişi milli mədəniyyətimizin bir hissəsini təşkil edib.

Çay süfrəsi arxasında söhbətləşmək, dərdləşmək, mehribanlıq ovqatımızı bölüşmək də bir atribut rolunu oynayır. Elə bil çayla etdiyimiz söhbətin səmimiyyəti də, xatirələri də maraqlı və yaddaqalan olur. Bir məsəldə deyildiyi kimi, "Ürək söhbət istər, çay içmək bəhanədir". Ən yaxşı dostluq münasibətləri də elə məhz çay zamanı baş tutur. Bu isə əsassız deyil. Çay bizim milli və ənənəvi içkimiz hesab edilir.

### Samovar çayının dadını içənlər bilər...

Çay içkisinin ən çox seviləni və arzulananı isə samovar çayıdır. Hətta uzaqdan gələn qonağın varsa, ona samovar çayını vermək hörmət əlaməti olmaqla yanaşı, el diliylə desək, "başının ucalığıdır". Mis samovarda qaynadılan çay daha dadlı olur. Odunla qaynadılan çayın ətri 50 metr məsafədən bilinir. Samovarda tüstülənərək qaynayan çayın dadını isə içənlər bilir. Tarixi qədim dövrlərə gedib çıxan, rus dilində "özüqaynadan" mənasını ifadə edən samovarın adını rus etnoqrafiyası ilə bağlasalar da, tarixi mənbələrdən məlum olur ki, samovar "sumavar" adı ilə qədim türklər-hunlar tərəfindən meydana gətirilib. Eramızın V əsrində hunlar içərisində soba qoyulmuş taxta evlər, daş hamamlar və digər tikə bilirdilər. Yüksək inkişaf yolu keçmiş hunların hərbi səfərlər zamanı üstüörtülü arabalarda yemək hazırladıqları və su qaynatdıqları samovar (qədim türk dilində su qabı) qərbi avropalıları çox təəccübləndirirdi.

Bu da göstərir ki, samovar tarixən bizim süfrə mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olub. Hətta Ordubadda Tarix-Diyarşünaslıq Muzeyində XVIII əsrə aid mis samovarlar nümayiş etdirilir. Həmçinin qədim zamanlarda qız köçürülməsi zamanı cehiz olaraq samovar verilər, toyda samovara aid haxıştalar da səslənərdi:

*Samovarım qızıldı, haxışta.*
*Yeddi yerdən sızırdı, haxışta.*
*Mən istəyən oğlanın, haxışta,*
*Qabaq dişi qızıldı, haxışta.*

Bu gün muxtar respublikada elə bir yeməkxana, çayxana tapmazsan ki, orada samovar çayı təklif olunmasın. Çay süfrə mədəniyyətinin təbliğ edildiyi məkanlardan biri olan "Milli yeməklər" restoranı may ayında bərpa işlərindən sonra əsaslı təmir olunaraq yenidən istifadəyə verilib. Burada istirahət etmək istəyənlərə samovar çayı təklif edilir. Sevindirici haldır ki, ürəyin "pürrəngi", "məxməri" bir də samovar çayı istəyirsə, "Milli yeməklər"də bu arzunu reallaşdırmaq imkanın var.

### Samovar kolleksiyaçısının izi ilə...

Çay haqqında yazı hazırlayarkən məqsədimiz çay adət-ənənələrimizin yaşadıldığı samovar kolleksiyaçısın tapmaq idi. "Niyyətimiz hara, mənzilimiz də ora", – deyib, Ordubadı qarış-qarış gəzdik. Hər kəs



1949-cu il təvəllüdlü Rüstəm Rəhimovun adını söylədi. Soraqlaşıb Rüstəm dayının evində qonaq olduq. Kolleksiyasında 25-ə qədər samovar olan Rüstəm dayı həmişə ona böyük maraq olduğunu vurğuladı. Əvvəllər qədim pulları toplayıb saxlayan müsahibim 2010-cu ildən samovar kolleksiyası yaratmaqla da məşğuldur. Samovarların 70 faizinin əl işi olması onda bu işə maraq yaradıb və zaman-zaman kolleksiyanın eksponatlarını zənginləşdirib, onlara əşya kimi yox, qiymətli miras kimi baxır. Rüstəm dayı deyir ki, uzaq keçmişimizdən, dədə-babalarımızdan, ulu nənələrimizdən yadigar qalan nə varsa – istər maddi, istərsə mənəvi dəyərlər olsun, onları qorumaq, yaşatmaq, gələcək nəsillərə çatdırmaq, nümayiş etdirmək həm vətənpərvərlik borcumuz, həm də tariximizə, soykökümüzə, milli mənsubiyyətimizə dərindən bağlılıqdır.



Kolleksiyadakı bütün eksponatlar gözəldir və sənətkarlıq nümunəsi olan bu samovarlarda xəttat və nəqqaş babalarımızın mənəviyyat dünyasından xəbər verən əl işləri yaşayır. Elə buna görə Rüstəm dayı onları göz bəbəyi kimi qoruyub əzizləyir.

### Dişləmə çay...

Naxçıvanda çayın "dişləmə çay" deyilən bir növü də var. Çayın bu növündən ta qədimdən istifadə edirlər. "Dişləmə çay" belədir ki, bir tikə qəndi çayda isladaraq ağıza qoyub bir neçə stəkan çay içirsən. Ümummilli lider Heydər Əliyevin Naxçıvana rəsmi səfəri zamanı çay içərkən dişləmə çay haqqında xatirələr söyləməsi, dişləmə çayın Naxçıvanda necə içilməsi barədə ətraflı məlumat verməsi xoş anlar kimi bu gün də xatırlanır.

### Armudu stəkanda limonlu Ordubad çayı...

Çayın armudu stəkanda təqdim edilməsi türk xalqlarının tarixi mənbələrində



qeyd olunur. İkincisi isə armudu stəkanı əldə tutmaq çox rahatdır. Başqa bir tərəfdən də çay stəkanın ağız hissəsinə nisbətən aşağı hissəsində gec soyuduğuna görə bir müddət isti qalır. Armudu stəkanda çay içmək mədəniyyətinin ən çox yaşadıldığı hesab edilən Ordubad rayonunun Vənənd kəndinin mərkəzində çinar ağacının içində xüsusi görkəmdə 1972-ci ildən son illərə qədər insanlara xidmət edən çayxana ordubadlıların ən çox üz tutduğu, istirahət etdiyi məkan olub. El arasında "xoruzpipiyi", "pürrəngi", "Ordubad limonlu" çayı ilə məşhur olan bu qədim çayxananın başqa bir özəlliyi də o olub ki, burada əyləşən hər kəsə armudu stəkanda çay gələr, əgər çayı içən doymayıb yenidən istərsə, o zaman masaya çaynikdə çay gələrdi. Və kimliyindən asılı olmayaraq, çayı içib ödəmə etməsən belə, kimsə səndən pul tələb etməzdi. Qonaqpərvər ordubadlıların qapısını döydünsə, mütləq onların armudu stəkanda Ordubad limonlu çayını içməlisən.

### İkirəngli çay möcüzəsi...

Çayın rəmzi xüsusiyyətindən biri də elçiliklə bağlıdır. Elçi düşən oğlan tərəfin yaxın adamlarına "hə" dən sonra qız evi tərəfindən ikirəngli çay verilir. Aşağısı ağ, üstü çay rəngi olan çay yalnız elçilikdə təqdim edilir və bunun rəmzi mənaları var. Maraqlısı da odur ki, bu ənənə yalnız bizim milli dəyərlərimizdə qızıstəmə adətində yaşadılır. Nənələrimiz deyərdi ki, çayın aşağı ağ olan tərəfi ağ atlı oğlan, üzərindəki çay rəngi isə evliliyə hazır olan qızın simvoludur. Əgər tərəflər qarşılıqlı "hə" ifadəsini işlədərlərsə, bu zaman iki rəngi qatıb şirin çay içər, verilən təklifə razılıq bildirər, çay gətirənə hədiyyələr verərlər. Xeyir-duaların bu cür ifadə edən el ağbirçəklərimiz və ağsaqqallarımız oğlanla qızın xoşbəxt olmasını qəbul etmiş olarlar.

"Yox" cavabı vermək istəyəndə isə süfrəyə ayrı-ayrılıqda qənd və çay qoyular. Bu davranış iki tərəfin adamlarının münasibətini pozmur, heç kim heç kimdən incimir. Elə çıxır ki, qız atasının yanına gələnlər çay içmək və söhbət etmək üçün gəliblərmiş. Razılıq olmasa belə, evinə gələn qonağın qarşısına hörmət əlaməti olaraq adi çay qoyular.

### Çayın faydaları və xalq təbabətində rolu...

Çaydan söz açmışkən onun müalicəvi əhəmiyyətindən danışaq. Xalq təbabətinə görə çay susuzluq və yorğunluq hallarında olduqca faydalıdır, başağrılarını sakitləşdirir, əhval-ruhiyyəni yüksəldir. O, kofein və digər mineral aktiv maddələrlə zəngin olduğu üçün qan-damar sisteminə müsbət təsir edir, müxtəlif iltihabi xəstəliklər zamanı istifadə olunur. Təzə dəmlənmiş ətirli çay həzm orqanlarının, sinir və ürək-damar sisteminin fəaliyyətinə yaxşı təsir göstərir.

Çayda olan C, D, E vitaminləri, nikotin turşusu və yod ömrü uzadır. Onun yarpaqlarındakı fenollar orqanizmdən zərərli maddələri, o cümlədən ağır metalları çıxarmaq, mədəni, böyrəkləri və qismən də qaraciyəri sağlamlaşdırmaq qabiliyyətinə malikdir. Bu içkidə flüor çox olduğuna görə o, dişlərdə kariyesin baş verməsinin qarşısını bir müddət ala bilir. Çayı şirniyyatla içmək onun müsbət təsirini xeyli azaldır. Sink, kalsium ilə zəngin olan çay bir çox xəstəliklərin inkişafının da qarşısını alır. Müntəzəm olaraq çay içənlərin orqanizmlərində amin turşularının və vitaminlərin səviyyəsi sabit qalır. Mütəxəssislər körpə uşaqların, xəstə və yaşlıların açıq, zehni əməklə məşğul olan adamların nisbətən tünd çay içmələrini məsləhət görürlər.

*Süfrə mədəniyyətimizin əsas atributu olan, qonaqqarşılama ənənələrini yaşadan çay süfrə mədəniyyəti bu gün də milli dəyərlərimizin daşıyıcısı kimi yaşadılır. Elə buna görədir ki, bizim süfrələri, qonaqlıqları, xeyir-şər məclislərini çaysız təsəvvür etmək mümkün deyil. Çünki çaydan yaxşı elə çayın özüdür.*

**Türkan HÜSEYNLİ**

## Bolluq və ucuzluq dolu yarmarka

Naxçıvan şəhərindəki Mərkəzi bazarda hər həftəsonu olduğu kimi, ötən şənbə günü də qələbəlik müşahidə edilirdi. Yarmarkaya məhsul gətirən torpaq mülkiyyətçilərinə hərtərəfli şərait yaradılmışdı. Buradakı səliqə-sahman da ilk baxışdan diqqəti cəlb edirdi. Yarmarkada məhsullar bazar qiymətindən 15-20 faiz ucuz təklif olunurdu.

Qeyd edək ki, süni qiymət artımının qarşısının alınması, alıcıların seçim imkanlarının artırılması məqsədilə yarmarkaya 21 istehsal müəssisəsi və 300-ə yaxın ailə təsərrüfatı tərəfindən 165 çeşiddə, 100 tona yaxın məhsul çıxarılmışdı.

Mərkəzi bazarda olarkən əkin və bostan sahələrində yetişdirdikləri məhsulu satan torpaq mülkiyyətçiləri və alıcılarla söhbət zamanı məlum oldu ki, belə tədbirlər bir neçə cəhətdən sərfəlidir. Təşkil olunan yarmarkalar təsərrüfatçı və sahibkarların – kənd zəhmətkeşlərinin min bir zəhmətlə ərsəyə gətirdikləri məhsulları rahatlıqla satmalarına və ailə büdcələrinin gəlirlərini artırmalarına şərait yaradır, həm də daxili bazarı yerli məhsullarla təmin edir.

**Ramiyyə ƏKBƏROVA**

## Çimərlik futbolu üzrə muxtar respublika çempionatına yekun vurulub

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Çimərlik Futbolu Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı, "Arazbet"in baş sponsorluğu ilə keçirilən çimərlik futbolu üzrə muxtar respublika çempionatına yekun vurulub.

Uzunoba gölü ətrafındakı çimərlik futbol meydançasında keçirilən çempionatın həlledici qarşılaşmasında "Naxçıvan Dövlət Universiteti" komandası ilə "Badamlı" komandası üz-üzə gəldi. Çempionat ərzində hər iki komandanın keçirdikləri bütün görüşləri qələbə ilə başa vurmaları oyunun gərgin keçəcəyindən xəbər verirdi. İlk 12 dəqiqəsi qolsuz başa çatan görüşün ikinci hissəsində üstünlüyü ələ alan tələbələr rəqibi ardıcıl olaraq 3 dəfə mərkəzə dəvət etdilər. Son hissədə rəqibin bir qoluna iki qolla cavab verən "Badamlı" komandası oyunda dönüş yarada bilmədi. Nəticədə, 4:2 hesabı ilə qələbə qazanan universitetin komandası ilk dəfə təşkil olunan çimərlik futbolu üzrə muxtar respublika çempionatının qalibi oldu.

Görüşdən sonra ilk olaraq ötən mövsüm Naxçıvan Futzal Liqasının qalibi olan komandalar mükafatlandırıldı. Liqanın qalibi olan "Nəqşicahan" komandasına kubok və plaket təqdim olundu. "Badamlı" komandası liqanın gümüş, "Panter" komandası isə bürünc mükafatçısı oldu.



Çimərlik futbolu üzrə Naxçıvan Muxtar Respublika çempionatının qalibi olan "NDU" komandası kubok və plaketlə mükafatlandırıldı. Final görüşündə məğlub olan "Badamlı" komandası ikinci, "Panter" komandası isə çimərlik futbol çempionatını üçüncü pillədə başa vurdular.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur şəhərində yaşamış Əlixanbəyov Rizvan Abutalıb oğlunun adına verilmiş 678 inventar nömrəli texniki pasport və 011678 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 641